# Milli Məclisin komitə iclaslarında

Sentyabrın 18-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası keçirildi. Komitənin sədri Aqiyə Naxçıvanlı əvvəlcə Milli Məclisin 2019-cu ilin yaz və növbədənkənar sessiyaları dövründə komitədə görülən işlər barədə hesabat verdi.

Bildirdi ki, 2019-cu ilin yaz və növbədənkənar sessiyaları dövründə Ailə, qadın və uşaq məsələləri komitəsinin 6 iclası keçirilib, 13 məsələ və 11 qanun layihəsi müzakirə olunub. 6 qanun layihəsi Milli Məclisdə qəbul edilib. Yaz sessiyası ərzində komitənin ünvanına daxil olmuş 116 məktub, təklif, ərizə və şikayətin 108-i araşdırılmaq üçün müvafiq təşkilatlara göndərilib.

Aqiyə Naxçıvanlı komitənin 2019-cu ilin payız sessiyası üçün iş planının layihəsini də diqqətə çatdırdı, müzakirəyə çıxarılması nəzərdə tutulan məsələlər barədə məlumat verdi. İş planı təsdiq olundu.

İclasda "Uşaq hüquqları haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Məişət zorakılığının qarşısının alınması haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Uşaq hüquqları haqqında", "Təhsil haqqında", "Reklam haqqında" və "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Kinematoqrafiya haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Nəşriyyat işi haqqında", "Televiziya və radio yayımı haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Telekommunikasiya haqqında" və "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri (birinci oxunuş) müzakirə edildi.

Komitə üzvlərindən Tahir Rzayev, Sahibə Qafarova, Sədaqət Vəliyeva və Dilarə Cəbrayılova gündəlikdəki məsələlər barədə fikirlərini bildirdilər. Qanun layihələri Milli Məclisin plenar iclasının müzakirəsinə təqdim olundu.

◆ ◆ ◆

Dünən həmçinin Milli Məclisin Səhiyyə komitəsinin də payız sessiyasında ilk iclası keçirildi. Öncə parlamentin 2019-cu il yaz və növbədənkənar sessiyalarında komitədə görülmüş işlərin hesabatı dinlənildi. Komitənin sədri Əhliman Əmiraslanov qeyd etdi ki, yaz və növbədənkənar sessiyalar zamanı 7 iclas keçirilib, 14 məsələ müzakirə olunub. Bunlardan 6-sı qanun layihəsi olub. Mühüm əhəmiyyət daşıyan həmin qanun layihələri parlamentdə qəbul edilib.

Bildirildi ki, hesabat dövründə Səhiyyə komitəsinə 300-ə yaxın müraciət, ərizə və şikayət daxil olub. Onların hər birinə həssaslıqla yanaşılıb, tədbir görülməsi üçün müxtəlif ünvanlara 230 məktub göndərilib. Sessiya müddətində komitədə 67 vətəndaş qəbul edilib.

İclasda Səhiyyə komitəsinin 2019-cu ilin payız sessiyası üçün iş planından bəhs edən Əhliman Əmiraslanov bildirdi ki, Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim edəcəyi qanun layihələri ilə yanaşı, komitədə hazırlanmış "İnsan orqanlarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsi də müzakirəyə çıxarılacaq. Həmçinin "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanun layihəsinin təkmilləşdirilməsinə, ölkəmizdə gələn ilin 1 yanvarından etibarən tətbiq ediləcək icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar normativ-hüquqi aktlara dəyişikliklərin edilməsinə, "Onkoloji xəstələrə tibbi yardımın vəziyyəti və perspektivləri"nə dair dinləmələr keçiriləcək.

Müzakirə zamanı komitə üzvləri ötən sessiyalarda görülmüş işləri təqdirəlayiq hesab etdilər, bir sıra təkliflər irəli sürdülər. Parlament Aparatının sosial qanunvericilik şöbəsinin müdiri Adilə Abasova görülmüş işlər barədə fikirlərini bildirdi.

Komitədə ikinci oxunuşda müzakirəyə çıxarılmış "Uşaq hüquqları haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, eləcə də "Məişət zorakılığının qarşısının alınması haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə uyğunlaşdırma xarakteri daşıyan layihələrə də baxıldı və Milli Məclisin plenar iclasına tövsiyə olundu.

◆ ◆ ◆

Sentyabrın 18-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin də iclası keçirildi. Deputatları salamlayan komitənin sədri Hadi Rəcəbli onlara payız sessiyasında qanun yaradıcılığı işində uğurlar arzuladı.

Hadi Rəcəbli gündəliyə uyğun olaraq əvvəlcə Milli Məclisin 2019-cu il yaz və növbədənkənar sessiyaları ərzində Əmək və sosial siyasət komitəsində görülən işlər barədə hesabat verdi. Dedi ki, 2019-cu il yaz və növbədənkənar sessiyaları ərzində Əmək və sosial siyasət komitəsinin 16 iclası keçirilib. Bu iclaslarda 31 məsələ müzakirə edilərək Milli Məclisin plenar müzakirəsinə tövsiyə olunub.

Komitə sədri 2019-cu il üçün payız sessiyası dövrünə dair işlər planı haqqında da məlumat verdi. Bildirildi ki, payız sessiyası dövründə gələn ilin dövlət büdcəsinin layihəsinin və büdcə zərfinə daxil olan digər məsələlərin müzakirəsi əsas diqqət mərkəzində olacaq. Eləcə də qanunvericilik təşəbbüsü qaydasında təqdim olunacaq digər məsələlər də müzakirə ediləcək.

İclasda komitə üzvləri iş planı ilə bağlı fikirlərini bildirdilər, təkliflərlə çıxış etdilər.

Əmək və sosial siyasət komitəsinin dünənki iclasında "Məişət zorakılığının qarşısının alınması haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri müzakirə edilərək Milli Məclisin plenar müzakirəsinə tövsiyə olundu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

**Azərbaycan.- 2019.- 19 sentyabr.- S. 5.**